**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazma hüququnda*

**FİRUZƏ MÜBARİZ QIZI CƏFƏROVA**

# BÖYÜK QAFQAZDA HEYVANDARLIĞIN ƏRAZİ TƏŞKİLİNİN İQTİSADİ-COĞRAFİ TƏDQİQİ

5401.01 – İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya işi AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir**

**Elmi rəhbər:** akademik **R.M.Məmmədov**

**Rəsmi opponentlər:** c.ü.e.d. **Z.N.Eminov**

c.ü.f.d. **M.R.Babayev**

***Aparıcı təşkilat*:** ADPU, Tarix və coğrafiya fakültəsi, "İqtisadi coğrafiya və CTM" kafedrası

Müdafiə "02" dekabr 2016-cı il saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D 01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya işi ilə AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur. Az1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat "31" oktyabr 2016-cı ildə göndərilmişdir.

**D01.091 Dissertasiya Şurasının elmi katibi, coğrafiya üzrə fəlsəfə doktoru, dosent** **M.S.Həsənov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əhalinin ərzaq məhsullarına olan tələbatını ödənilməsi və yoxsulluğun aradan qaldırılması üçün respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda əhalinin sayının artması ilə əlaqədar olaraq ərzaq təminatı müasir dövrümüzün ən aktual məsələlərindən birinə çevrilmişdir. Tarixən ixtisaslaşmış və kənd əhalisinin həyat fəaliyyətində aparıcı yer tutan heyvandarlığın inkişafı və onun qarşısında duran problemlərin aradan qaldırılması yollarının müəyyən olunması ölkədə əhalinin keyfiyyətli və ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin olunmasına, onların sosial yaşayış səviyyəsinin yaxşılaşdırılmasına, regionlarda yerli əhalinin məşğulluğunun artırılmasına, yeni iş yerlərinin açılmasına və iqtisadi inkişafa nail olmaq olar.

Müasir dövrdə heyvanların sayının və məhsuldarlığının artırılmasına nail olmaq, aqrar sektorda istehsalı artırmaq, əhalinin ərzaq məhsullarına olan tələbatını yerli istehsalın hesabına ödəmək və bəzi sənaye sahələrini heyvandarlıq xammalları ilə təmin etmək üçün regionlarda Dövlət Proqramları çərçivəsində aqrar islahatlar aparılmış və müxtəlif mülkiyyət formalarına əsaslanan yeni təsərrüfat sahələri yaradılmışdır. Lakin görülən işlərə baxmayaraq problemi tam şəkildə həll etmək mümkün olmamışdır. Hazırda regionlarda mövcud olan problemlərin aradan qaldırılması və onların müasir tələblər baxımından iqtisadi-coğrafi aspektdə araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Böyük Qafqazda heyvandarlığın ərazi təşkilini iqtisadi-coğrafi baxımdan öyrənmək, heyvandarlığın tarixi inkişaf mərhələlərini müəyyən etmək, ərzaq təhlükəsizliyinin təmin edilməsində heyvandarlığın rolunu tədqiq etmək, heyvandarlığın ərazi təşkilinin rayonlaşdırılmasını aparmaq, heyvandarlıq təsərrüfatında əhali məşğulluğunun perspektivlərini öyrənmək vəzifə kimi qarşıda durur.

**Tədqiqat obyektinə** Böyük Qafqazın Azərbaycan ərazisinə daxil olan Abşeron, Dağlıq Şirvan, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi-coğrafi rayonları daxildir.

**Tədqiqatın predmeti** Böyük Qafqazın Azərbaycan ərazisinə daxil olan iqtisadi-coğrafi rayonlarda heyvandarlığın ərazi təşkili və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu sahənin məhsullarının emalı yollarıdır.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycanda kənd təsərrüfatının ərazi təşkili, onun sahə və ərazi strukturunun formalaşmasına təbii-coğrafi şəraitin iqtisadi və sosial-demoqrafik potensialın təsiri, müstəqillik illərində aparılan aqrar islahatlar və onların nəticələri haqqında uzun illər tədqiqatlar aparılmışdır. Bununla yanaşı, aparılan aqrar islahatlardan sonra kənd təsərrüfatında məhsuldarlığın artırılması, onun səmərəli ərazi təşkili, daha çox gəlir gətirən sahələrin müəyyən edilməsi, onun məhsullarının emalının təşkili yollarının tədqiqi aktual olaraq qalır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Böyük Qafqazın təbii və iqtisadi inkişaf xüsusiyyətlərini nəzərə almaqla heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi problemlərinin və onların həlli yollarının müəyyən olunmasıdır.

Tədqiqat regionunda heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi baxımdan qiymətləndirilməsi, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, regionda iqtisadi, sosial və ekoloji tələblərə cavab verən yeni təsərrüfat sahələrinin formalaşdırılması heyvandarlığı ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevirə bilər.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli tələb olunur:

- heyvandarlığın ərazi təşkilində elmi-nəzəri yanaşmanın əsaslandırılması;
- kənd təsərrüfatı ilə əlaqədar norma və qaydaları tətbiq etməklə heyvanların saxlanılması və artırılması;
- heyvandarlığın ərazi təşkilinin müasir vəziyyəti və ölkə əhalisinin ərzaq məhsulları ilə təminatında aqrar sənayenin rolunun müəyyənləşdirilməsi;
- heyvandarlığın perspektiv sahələrinin müəyyən olunması və aqrar-sənaye kompleksinin öyrənilməsi ilə rayonlaşdırmanın aparılması və xəritə-sxemlərin tərtib olunması.

**Tədqiqat metodikası.** Tədqiqat zamanı tarixi və müqayisəli təhlil, sistemli yanaşma, statistik-riyazi, kartoqrafik (CİS texnologiyaları) və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Dövlət Statistika Komitəsinin nəşr etdirdiyi məcmuələr, Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya və İqtisadiyyat İnstitutlarının fond materialları, Azərbaycan Respublikasının mövcud qanunvericilik bazası, bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərləri, metodiki

göstərişləri, eləcə də müəllifin apardığı elmi-tədqiqat işlərinin nəticələri təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Böyük Qafqazda heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi aspektdə tədqiqi;
- heyvandarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması yolları;
- heyvandarlığın və aqrar sənaye kompleksinin inkişaf perspektivliyini müəyyən etmək üçün tədqiqat regionunun rayonlaşdırılması.

**Tədqiqatın elmi yenilikləri.** Böyük Qafqazda heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi problemlərinin kompleks şəkildə tədqiqində aşağıdakı yeniliklər əldə edilmiş və elmi cəhətdən əsaslandırılmışdır:

- Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi baxımdan kompleks təhlili aparılmışdır;
- yeni yaradılmış heyvandarlıq müəssisələrinin mövcud imkanları və gələcək inkişaf yolları müəyyən edilmişdir;
- regionun aqrar sənaye kompleksinin müasir vəziyyəti təhlil olunmuş, ərazinin rayonlaşdırılması aparılmış və perspektiv inkişaf istiqamətləri müəyyən olunmuşdur.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** Tədqiqat nəticəsində Böyük Qafqazda heyvandarlığın ərazi təşkilinin iqtisadi-coğrafi inkişaf xüsusiyyəti, son illər regionda baş vermiş dəyişikliklər, yerli əhalinin, xüsusilə yüksək dağlıq ərazilərdə yaşayan kənd sakinlərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında heyvandarlığın rolu, perspektivli sahələri və inkişaf etdirilməsi yolları müəyyən olunmuşdur.

Dissertasiya işinin materiallarından Dövlət Proqramlarının hazırlanmasında, ali (bakalavr və magistr) və orta ixtisas məktəblərində, o cümlədən "Azərbaycanın iqtisadi və sosial-coğrafiyası" və "Kənd təsərrüfatı coğrafiyası" fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin məzmunu və əldə edilmiş nəticələri "R.X.Piriyevin anadan olmasının 90 illik yubileyi"nə həsr olunmuş elmi konfransda (Bakı, 2014), "Ekologiya və həyat fəaliyyətinin mühafizəsi" üzrə "Sənaye İli"nə həsr olunmuş elmi konfransda (Sumqayıt, 2014), Coğrafiya: Nəzəriyyə, Praktika və İnnovasiya (Bakı, 2015), "Azərbaycan Regionlarının coğrafi problemləri" elmi-praktik konfransda (Bakı, 2016) məruzə edilmişdir.

Tədqiqat işinin mövzusuna dair 9 elmi məqalə çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, III fəsil, nəticə və təkliflər, ədəbiyyat siyahısından ibarətdir. Kompüter yazısı ilə 126 səhifəlik dissertasiyaya 12 cədvəl, 3 xəritə-sxem, 23 diaqram, 122 adda ədəbiyyat siyahısı əlavə edilmişdir.

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Girişdə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası, elmi yenilikləri, praktiki əhəmiyyəti müəyyən edilir.

Birinci fəsil "**Heyvandarlığın ərazi təşkilinin öyrənilməsinin nəzəri-metodiki əsasları**"na həsr edilmişdir.

Respublikamızda kənd təsərrüfatı, xüsusən heyvandarlıq sahəsinin öyrənilməsi istiqamətində bir çox alim və tədqiqatçılar tərəfindən işlər aparılmışdır. M.H.Vəliyev (Baharlı) Azərbaycan ərazisində qış və yay otlaqlarının mövcud areallarını öyrənməklə, heyvandarlığın qoyunçuluq, qaramal, atçılıq, ipəkçilik, arıçılıq və digət sahələrini geniş sürətdə təhlil etmişdir. M.M.Poladov iqtisadi və təbii xüsusiyyətləri nəzərə almaqla heyvandarlıq məhsullarının artırılması və mövcud imkanlardan daha səmərəli istifadə edilməsi yolu ilə dayanıqlı yem bazasının yaradılmasının zərurətini, xüsusilə heyvandarlıq məhsullarının istehsalının yüksəldilməsi ilə əlaqədar elmi tövsiyələr vermişdir. H.B.Əliyev Böyük Qafqazı yarım-qaba və yarımzərif yunlu qoyunçuluq, südlük maldarlığı inək və camış zonalarına ayırmışdır. F.Ə.Məlikov zərifyunluq istiqamətli "Azərbaycan dağ merinosu" cinsini yetişdirmiş və zərifyunlu cinslərin cütləşdirilməsi yolu ilə yerli qabayunlu qoyunların keyfiyyətcə yaxşılaşdırılmasına nail olmuş, yüksək ətlik keyfiyyəti ilə seçilən Qaradolaq və Calo qoyunlarının, xalçaçılıq sənayesi üçün qiymətli xammal mənbəyi olan Balbas qoyunlarının sayının artırılması və məhsuldarlıq keyfiyyətini təkmilləşdirmək sahəsində xeyli işlər görmüşdür. B.T.Nəzirova kənd təsərrüfatı məhsullarının istehsalında iqtisadi-coğrafi problemlərin həlli məqsədilə təbii sahələrin fiziki-coğrafi əsaslarının kənd təsərrüfatına təsiri yollarını araşdırmış, əhalinin, əmək ehtiyatlarının, sənaye sahələrinin, maddi texniki bazanın və nəqliyyatın kənd təsərrüfatının inkişafında əsas iqtisadi göstəricilərin təhlilini aparmış və kənd təsərrüfatının inkişafı, onun istehsal etdiyi məhsulların keyfiyyəti və maya dəyəri, heyvanların bəslənməsi və saxlanılması, həmçinin baytarlıq xidməti ilə əlaqədar geniş tədqiqat işləri aparmışdır. A.A.Qurbanzadə kənd təsərrüfatı coğrafiyasının tarixi dövr ərzində formalaşmasının konsepsiyasını, mahiyyətini, davamlı ərazi təşkili

formalarını və metodikasını tədqiq etmiş, kənd təsərrüfatında nəzəri və praktiki müddəaların beynəlxalq standartlara uyğunluğunu, kənd təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılmasını, torpaq və əmək ehtiyatlarından səmərəli istifadənin iqtisadi-coğrafi xüsusiyyətlərini dəqiqləşdirmişdir. N.Ə.Paşayev, N.H.Əyyubov və Z.N.Eminov şəhər və kənd yaşayış məntəqələrinin yüksəklik qurşaqları üzrə yerləşməsi qanunauyğunluqlarını, əhali məskunlaşmasının idarə olunmasının strateji və geosiyasi zəruriliyini öyrənməklə, Azərbaycanda yeyinti və yüngül sənayesinin xammala olan tələbatının ödənilməsi məqsədilə ölkədə aparılan iqtisadi islahatlar və onların qarşısında duran problemlərin həlli yollarını, regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul olunmuş Dövlət Proqramlarının icra məsələlərini geniş sürətdə təhlil etmişlər. Z.T.İmrani Azərbaycan müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatında aparılmış aqrar islahatlar, kənd təsərrüfatı məhsullarından əldə edilən gəlirlərin iqtisadi-coğrafi rayonların iqtisadiyyatında və əhalinin həyat şəraitinin qurulmasında tutduğu yeri, heyvandarlığı inkişaf etdirmək üçün yüksək keyfiyyətli yem bazasının yaradılması yollarını geniş sürətdə təhlil edilmiş, tədqiqat apardığımız regionun tarixi-coğrafi inkişaf xüsusiyyətlərini öyrənməklə kənd təsərrüfatının daha perspektiv sahələrinin inkişaf etdirilməsi yollarını və əhalinin məşğulluğu sahəsində əldə edilən irəlləyişlərin yerli istehsal hesabına ödənildiyini qeyd etmişdir.

Bununla yanaşı xarici ölkə alimlərindən: İ.P.Boyko kənd təsərrüfatı məhsullarının dayanıqlığı, V.M.Poznyakovskiy, K.Y.Motovilov, A.P.Bulatov, N.N.Lanseva və İ.N.Mikolayçik heyvandarlığın qida bazasının əsasını təşkil edən yem və yem əlavələrinin keyfiyyətinin ekspertizası və təhlükəsizliyi kimi müasir problemləri öyrənmişlər. D.V.Stepanov, N.D.Podina və T.V.Popkova müasir şəraitdə kənd təsərrüfatı heyvanlarının, xüsusilə mal-qaranın və ev quşlarının fiziologiyasına və anatomiyasına əsaslanmaqla heyvanların qidalanması və onların say dinamikası, O.L.Nesterov kənd təsərrüfatı heyvanlarının saxanılması və onların artırılması istiqamətlərini tədqiq etmişlər. Wilson G. Pond, Fuller W. Bazer və Bernard E. Rollin heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsi məqsədilə keyfiyyətli və ekoloji cəhətdən təmiz qida sisteminin təşkil edilməsi yollarını araşdırmışdır.

Yuxarıda qeyd olunan elmi-metodiki mənbələr, müxtəlif məzmun və məqsədləri əhatə etsə də, tədqiqat apardığımız regionun daha yaxşı öyrənilməsi və qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün yardımçı rolunu oynamışdır.

Böyük Qafqazın təbii şəraitinin təhlili nəticəsində müəyyən edilmişdir ki, burada kənd təsərrüfatının, xüsusilə heyvandarlığın müxtəlif sahələrinin inkişafı üçün əlverişli imkanlar mövcuddur. Regionun malik olduğu təbii sərvətlər burada məhsuldar qüvvələrin inkişafına da zəmin yaradır. Bu da tədqiqat regionumuzun hər bir inzibati rayonunun aparıcı təsərrüfat sahələrinin inkişaf səviyyəsini və müasir vəziyyətini müəyyən etməyə imkan verir. Bunun üçün əlverişli torpaq-iqlim şəraitində heyvandarlığın müxtəlif sahələrinin təbii-iqtisadi zonalar üzrə səmərəli ixtisaslaşması və təmərküzləşməsini tələb edir.

Böyük Qafqaz regionunda 2014-cü il ərzində əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 48,6 mlrd. manat olmuşdur ki, onun da 2,75%-i kənd təsərrüfatı məhsullarının payına düşmüşdür. Respublika üzrə ümumi kənd təsərrüfatı məhsullarının 25,53%-ni verən bu regionda əsas kənd təsərrüfatı məhsulları istehsalının 43,34%-i Quba-Xaçmaz, 32,25%-i Şəki-Zaqatala, 15,58%-i Dağlıq Şirvan, 8,83%-i isə Abşeron iqtisadi-coğrafi rayonlarının payına düşür.

Azərbaycanda olan inəklərin 25,0%-i, camışların 18,9%-i, qoyunların 26,7%-i, keçilərin 26,0%-i, donuzların 92,4%-i, quşların isə 32,0%-i tədqiqat regionumuzun payına düşür (2014).

Cədvəl 1

2014-cü ildə Azərbaycanda və Böyük Qafqazda kənd təsərrüfatı heyvanların baş sayı

| İqtisadi-coğrafi rayonlar | kənd təsərrüfatı heyvanları | | | | | |
|---|---|---|---|---|---|---|
| | inəklər | camışlar | qoyunlar | keçilər | donuzlar | quşlar |
| Abşeron | 22288 | 52 | 205103 | 15471 | 562 | 35966454 |
| Şəki-Zaqatala | 118927 | 14987 | 757459 | 63999 | 4206 | 1324841 |
| Quba-Xaçmaz | 84755 | 2837 | 515929 | 32090 | 542 | 3747249 |
| Dağlıq Şirvan | 69471 | 4755 | 658289 | 59695 | 366 | 851705 |
| *Cəmi:* | 295441 | 22631 | 2136080 | 171255 | 5676 | 9520249 |
| Azərbaycan Respublikası | 1179619 | 119612 | 7987313 | 658107 | 6143 | 28851734 |

Mənbə: Azərbaycanın kənd təsərrüfatı, 2014. Bakı, 2015. ARDSK.

Böyük Qafqazda Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları heyvandarlıq sahəsi ilə daha yaxşı təmsil olunmuşdur. Son illər bu iqtisadi-coğrafi rayonlarda qoyunçuluq sürətlə inkişaf etdirilir. İri buynuzlu mal-qara isə Şəki-Zaqatala, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarında cəmlənmişdir. Abşeron isə sənaye rayonu

olduğu üçün burada heyvandarlıq sahəsi digər regionlarla müqayisədə bir qədər geri qalır. Lakin quşçuluq sahəsində Quba-Xaçmaz ilə yanaşı Abşeron iqtisadi-coğrafi rayonu da ölkə miqyasında qabaqcıl yerlərdən birini tutur və respublikada olan ümumi quşçuluq təsərrüfatlarının 28,12%-i tədqiqat regionunun payına düşür.

Heyvandarlıq məhsullarının artırılmasına təkan verən əsas amillərdən biri heyvanların sayının artırılmasıdır. Son illər heyvandarlıqla məşğul olan şəxsi təsərrüfatlara dövlət tərəfindən ayrılan subsidiyalar bu sahənin genişləndirilməsinə stimul vermişdir. “Regionların sosial iqtisadi inkişafı” Dövlət Proqramlarında heyvandarlıq təsərrüfatlarının inkişaf etdirilməsi məqsədilə bir sıra işlər həyata keçirilmişdir. Görülmüş kompleks tədbirlər nəticəsində son illər iri və xırda buynuzlu mal-qaranın baş sayı çoxalmış (camışlar istisna olmaqla), istehsal olunan ət və süd məhsullarının və yumurtanın sayı xeyli artmışdır. Bununla yanaşı, respublikamızda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə 56 inzibati rayonunda heyvanların süni mayalandırılması tədbirləri həyata keçirilmişdir. Təkcə 2014-cü ildə respublikamıza Niderland və Norveçdən idxal edilən heyvan toxumalarından 100 min başa yaxın qaramal süni şəkildə mayalandırılmışdır ki, onlardan da 69 min baş sağlam bala alınmışdır.




Şək. 1. Böyük Qafqaz regionunda ümumi məhsul buraxılışı (min. manat) və inzibati rayonlar üzrə kənd təsərrüfatının payı (%-lə), 2014

Kənd təsərrüfatı məhsullarının buraxılışı Xaçmaz (197,0 mln. manat), Şəki (121,6 mln. manat), Quba (139,6 mln. manat) və Zaqatala (103,2 mln. manat) inzibati rayonlarınında cəmlənir (Şək. 1).

Müstəqilliyin ilk illərində regionda kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdir. Lakin 2004-cü ildən etibarən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqram"larının icrası ilə əlaqədar olaraq bu sahədə müəyyən irəliləyişlər əldə edilmişdir. 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi ilə əkinçilik və heyvandarlığın inkişafında mühüm nailiyyətlər əldə edilmiş, bir sıra sahələrin istehsal quruluşu köklü şəkildə dəyişdirilmiş, əhalinin sosial rifah halı xeyli yaxşılaşdırılmışdır. Böyük Qafqaz regionunda ərzaq təhlükəsizliyi probleminin həlli yollarının yaxşılaşdırması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- kənd təsərrüfatı məhsullarının istehsalında yüksək məhsuldarlığa nail olmaq;
- yüksək keyfiyyətli məhsul istehsal etməklə, Qlobal Qida Təhlükəsizliyi İndeksində qabaqcıl yer tutmaq;
- kənd təsərrüfatında heyvandarlığın intensivləşdirilməsi və məhsuldarlığının yüksəlməsi hesabına ölkə əhalisinin ərzaq məhsullarının idxaldan asılılığının azaltmaq;
- müxtəlif resurslardan və ölkənin maliyyə imkanlarından istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə aqrar sektora daha çox vəsait ayırmaq;
- ərzaq məhsullarının idxaldan asılılığı azaltmaq və ərzaq təhlükəsizliyi probleminin həlli üçün Dövlət Proqramlarının səmərəli həyata keçirilməsinə əlverişli şərait yaratmaq;
- ölkə əhalisinin gündəlik ərzaq məhsullarına olan tələbatının 80%-i yerli istehlakçılar tərəfindən ödənilməsi.

"**Heyvandarlığın ərazi təşkilinin müasir vəziyyəti**" adlı ikinci fəsildə heyvandarlığın yemlə təminatı, onun ərazi təşkili və məhsul istehsalının inkişaf dinamikası məsələlərinə baxılmışdır.

Heyvandarlığın mövsümi yem bazasının əsasını yay və qış otlaqları, yem bitkilərinin əkinini isə birillik və çoxillik ot, yem çuğunduru və qarğıdalı bitkiləri təşkil edir (Şək. 2).

Böyük Qafqazın Azərbaycan ərazisinə daxil olan iqtisadi-coğrafi rayonlarda təbii otlaq və biçənəklərin mövcudluğu, subalp və alp çəmənləri, əhalinin istehsal vərdişləri heyvandarlığın inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Bu da məhsulların kompleks emalına əsaslanan və müasir tələblərə cavab verən yeyinti sənaye sahələrinin yaradılmasını zəruri edir.

İstehsal edilən məhsullar nəinki regionda, həmçinin respublikada ərzaq məhsullarına olan tələbatın ödənilməsinə imkan verər.

Yem istehsalının müasir vəziyyəti heyvandarlığın artmaqda olan tələbatını hələ tam ödəyə bilmir. Yem bitkilərinin məhsuldarlığının aşağı olması onun maya dəyərinin xeyli yüksəlməsinə səbəb olur. Digər tərəfdən məhsuldarlığın aşağı olması əkin yerlərindən, əmək və vəsaitlərdən səmərəli istifadə edilməsinə imkan vermir ki, bu da nəticə etibarı ilə heyvandarlıqda məhsuldarlığın azalmasına səbəb olur.




Mənbə: Azərbaycanın kənd təsərrüfatı, 2014. Bakı, 2015. ARDSK.

Şək. 2. Yem bitkilərinin əkin sahəsi, ha

Heyvandarlığın inkişafı və yem bazasının möhkəmləndirilməsi yalnız təbii yem mənbələrindən deyil, həmçinin şirəli yem bitkilərindən də asılıdır. Belə ki, şirəli yem bitkilərinin yaşıl kütləsi, quru otu, samanı və silosu yüksək keyfiyyətə malik olmaqla, bitkilərin tərkibində olan zülal, protein, yağ, müxtəlif vitaminlər və mineral maddələr yüksək qiymətləndirilir. Bununla yanaşı, şirəli yem bitkilərinin, təkcə kökümeyvəliləri deyil, yerüstü kütlələri, həmçinin quru otları da yüksək qidalılıq dəyərinə malikdir. Məhz bu amil heyvandarlığın inkişafında əsas faktorlardan biri olmaqla yanaşı, heyvanların yemlə təminatında da müstəsna rol oynayır. Hesab edirik ki, şirəli yem bitkilərinin əkin sahələrinin genişləndirilməsi yolu ilə gələcəkdə mövcud problemi aradan qaldırmaq olar.

Heyvandarlığın yem bazasında mühüm rol oynayan silos və yaşıl yem üçün qarğıdalı bitkilərinin əkin sahəsi və istehsalını əks etdirən diaqrama nəzər salsaq görərik ki, 1990-cı il ilə müqayisədə 2013-cü ildə onların əkin sahələri 65,5 dəfə, istehsalı isə 61,7 dəfə azalmışdır (Şək. 3).

Son iki ildə nisbətən artım tendensiyası qeydə alınsa da, ümumilikdə bu amil heyvandarlığın yerli yem məhsulları ilə tam şəkildə tələbatını ödəmir və yem bitkiləri qonşu ölkələrdən idxal edilir.




| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|
| əkin sahəsi | 98,5 | 36,9 | 2,2 | 0,9 | 0,8 | 0,8 | 1,2 | 1,5 | 1,4 |
| istehsal | 943,9 | 182,3 | 4,8 | 16,5 | 13,2 | 8,7 | 12 | 17,8 | 15,3 |

Mənbə: Azərbaycanın kənd təsərrüfatı, 2014. Bakı, 2015. ARDSK. s. 195-196

Şək. 3. Azərbaycanda silos və yaşıl yem üçün qarğıdalının əkin sahəsi (min ha.) və istehsalı (min ton)

Böyük Qafqaz ərazisində olan otlaq və biçənəklərdən səmərəli istifadə olunması, torpaqların dağ yamaclarında eroziyaya uğramasının, dağətəyi və düzən ərazilərdə şoranlaşmasının qarşısının alınması, heyvandarlığın struktur tərkibinin və saxlanma şəraitinin müasir tələblərə uyğun inkişaf etdirilməsi, həmçinin regionda dayanıqlı inkişafın təmin edilməsi məqsədilə dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mühafizə olunması lazımdır. Otlaq və biçənəklərin normadan artıq yüklənməsinin qarşısı alınmalı, heyvandarlığın inkişafı ilə əlaqədar bioloji müxtəliflik qorunmalı, yerli şəraitə uyğunlaşdırılmış yüksək məhsuldar heyvan cinslərinin yetişdirilməsi əsas tədbirlərdən olmalıdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, yem bitkilərinin, biçənək və otlaqların məhsuldarlığının yüksəldilməsi üçün aşağıdakı əsas tədbirlər sisteminin həyata keçirilməsi məsləhər görülür:

- təbii yem sahələrindən səmərəli istifadə etmək, örüş və otlaq sahələrinə əlavə ot toxumu səpmək, qışlaqlarda tarla şəraitində intensiv yem sahələri yaratmaq;

- torpaqdan düzgün istifadə edilməsi yolu ilə səmərəli əkin dövriyyəsi təşkil etmək;
- heyvandarlıqda məhsul istehsalının intensiv artımında mühüm rol oynayan yem bitkilərindən: soya, sorqo, qarğıdalı, günəbaxan və çuğundurun əkin sahələrini genişləndirmək.

Hazırda Böyük Qafqazda heyvandarlıq ətlik-südlük və südlük-ətlik istiqamətlərində inkişaf etdirilir. Həmçinin, heyvandarlığın ən mühüm sahəsi maldarlıq olmaqla, burada inək və camış naxırları mühüm yer tutur. Böyük Qafqazda inək naxırlarının sayı 635 min baş olmaqla, respublika üzrə 54% təşkil edir. Regionun ayrı-ayrı iqtisadi-coğrafi rayonları üzrə isə bu göstərici bir-birindən xeyli fərqlənir. Belə ki, Abşeron iqtisadi-coğrafi rayonunda əhalinin sayı və ərzaq məhsullarının istehlakı çox olmasına baxmayaraq burada inək naxırlarının sayı regiona görə cəmi 6% təşkil edir. Uyğun olaraq Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda bu göstərici 40%, Quba-Xaçmazda 30% və Dağlıq Şirvanda 24% təşkil edir.

Ölkəyə gətirilən damazlıq düyələrin 6022 başı holştin-friz, 1646 başı simmental, 380 başı şvis, 324 başı şarole və 25 başı Aberdin-anqus cinslərindən olan heyvanlardır. Ölkəyə gətirilən bu yeni inək cinslərinin 30%-dən çoxu Böyük Qafqaza aid edilən inzibati rayonlara satılmışdır. Respublikada yeni yaradılan iri heyvandarlıq kompleksləri ilk növbədə damazlıq düyələrlə komplektləşdirilir. Bununla yanaşı, ayrı-ayrı fərdi, ailə, kəndli və ev təsərrüfatlarına da damazlıq düyələr lizinq yolu ilə verilmişdir. Damazlıq düyələr satılan kəndli-fermer təsərrüfatlarında isə heyvanların yemlənməsinə və saxlanmasına ciddi nəzarət olunur.

Region daxilində camışçılıq Şəki-Zaqatala iqtisadi-coğrafi rayonlarında daha yaxşı inkişaf etdirilmişdir. Son 15 il ərzində bu sahədə ən yüksək göstərici 2000-ci ildə müşahidə edilmişdir. Belə ki, Böyük Qafqaz regionunda 2000-ci ildə 80 min baş camış naxırı qeydə alınmışdırsa, sonrakı illərdə bu göstərici 32 min baş azalaraq 2014-cü ildə 48 min başa təşkil etmişdir.

Böyük Qafqazda xırda buynuzlu maldarlıq heyvandarlığın inkişaf etmiş ikinci mühüm aparıcı sahəsidir. Respublikada qeydə alınan xırdabuynuzlu mal-qaranın 26,7%-i və ya 2307 min başı bu regionun payına düşür. Əgər son illərin statistik göstəricilərini nəzərə alsaq 2000-ci ildən 2014-cü ilə qədər olan müddətdə xırda buynuzlu maldarlığın dinamikasında Abşeronda 1,2 dəfə, Şəki-Zaqatalada 1,3 dəfə, Quba-Xaçmazda 1,1 dəfə və Dağlıq Şirvanda 1,3 dəfə artım tendensiyasını müşahidə edirik.

Xırda buynuzlu maldarlıqda qoyunçuluq heyvandarlığın inkişaf etmiş ənənəvi sahələrindən biridir. Hələ keçmişdə Azərbaycanda xalq seleksiyası yolu ilə çoxlu sayda Bozax, Qarabağ, Şirvan, Ləzgi, Balbas və s. kimi qiymətli qoyun cinslərinin genofondu yaradılmışdır. Bu cinslər əsas etibarilə ətlik-südlük-yunluq istiqamətli idilər. 2011-ci ildən etibarən isə respublikamızda heyvandarlığın genefonduna Abşeron və Mil-Qarabağ qoyun cinsləri əlavə edilmişdir.

2000-ci ildən başlayaraq fərdi təsərrüfatlarda davar saxlanılmasına diqqət artırılmışdır. Bunun nəticəsində keçilərin baş sayı get-gedə artmağa başlamış və onların sayı 2014-cü ildə 658 minə çatdırılmışdır. Bununla yanaşı 2014-cü ildə bu sahəni inkişaf etdirmək məqsədilə respublikamıza İsveçrədən 670 baş südlük istiqamətli Zaanen və Alp cinsli keçilər gətirilmişdir. Onlardan 330 baş Zaanen, 340 baş Alp keçilərindən ibarət idi. Bu cinsdən olan keçilərin baş sayının 4000-ə çatdırılması nəzərdə tutulmuşdur.

Keçilərin diri çəkisi 45-60 kq, təkələrinki 70-80 kq, çəpişlər doğularkən isə 3,5-4,5 kq olurlar. Zaanen keçiləri ağ, alp keçiləri isə qonur rəngdə olur. Sağım dövrü 8-11 ay davam edən bu cins keçilər il ərzində 600-700 litr süd vermə qabiliyyətinə malikdirlər. Yaxşı yemləmə şəraitində isə onlardan 1000-1200 litr süd almaq mümkündür. Cins keçilər artırıldıqdan sonra dövlət onları ev, ailə kəndli və fərdi təsərrüfatlara satılmasını, həmçinin keçilərin cins tərkibinin yaxşılaşdırılmasında da istifadə edilməsini nəzərdə tutur.

Quşçuluq respublikamızda heyvandarlığın sənaye əsasları ilə sürətlə inkişaf etdirilən ən intensiv sahəsidir. Əhalinin quş ətinə və yumurtaya olan tələbatının ödənilməsində bu sahənin rolu böyükdür. Regionda sənaye üsulu ilə quş əti istehsalının torpaq vergisi istisna olmaqla bütün vergilərdən, eləcə də quşçuluq üçün avadanlıqların idxalının gömrük rüsumu və əlavə dəyər vergisindən azad olunması, yeni texnologiyaların tətbiqi bu sahənin inkişafını daha da sürətləndirib, quşçuluq təsərrüfatlarının quş əti və damazlıq yumurta üzrə istehsal gücləri artıb.

Quşçuluq cox mühüm sahə olub ərzaq məhsulları, xüsusilə qiymətli ət və yumura istehsalında mühüm əhəmiyyət kəsb edir. Quşçuluqda əldə edilən məhsul tez yetişkənliyi ilə fərqlənir ki, bu zaman 4,5-5 aydan başlayaraq il ərzində toyuqlar 250-300 yumurta verir. Ətlik istiqamətdə olan toyuq 2 aydan sonra 1,5-1,7 kq-dək çəkiyə malik olur. Quşçuluq daha çox məhsul verməklə yanaşı, onun yem bazası o qədərdə böyük deyildir. Belə ki, 1 kq quş ətinə 2,3-2,7 yem vahidi tələb olunur.

2014-cü ildə respublikada 28,8 mln. baş quş qeydə alınmışdır ki, bunun da 32,9%-i (9,5 mln. baş) Böyük Qafqaz regionunun payına düşür. 2005-2014-cü illərdə regionda quşçuluğun inkişaf dinamikası artan xətlə özünü göstərmişdir. Hazırda regionda qeydə alınan ümumi quşların sayında Quba-Xaçmaz 39,4%, Abşeron 37,8%, Şəki-Zaqatala 13,9%, Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu isə 8,9% paya malikdir. Böyük Qafqaz regionunun iri sənaye şəhərlərinin və yaşayış məntəqələrinin kənarlarında yüksək gəlir gətirən və tez əmtəəlik məhsul verən broyler quşçuluğunun inkişaf etdirilməsi nəzərə alınmalıdır.

Dünya təcrübəsində ərzaq təhlükəsizliyinin təminatı ərzaq bazarının vəziyyəti, kənd təsərrüfatının inkişaf səviyyəsi, dövlətin öz əhalisini milli istehsal əsasında təmin etmək imkanları və s. kimi xarakterizə olunur. Ölkə əhalisinin ərzaq təminatı və ərzaq təhlükəsizliyi problemlərinin həlli bütünlükdə aqrar sənaye sahələrinin, (əsasən qida sənayesi) xüsusilə heyvandarlığın hərtərəfli inkişaf etdirilməsi, insan orqanizminin ən çox ehtiyacı olan ət, süd və süd məhsullarının zülallar, yağlar, karbohidratlar və s. qidalı maddələrlə zəngin olmasındadır. Ümumilikdə isə ərzaq təhlükəsizliyinin təminatı dövlətin həyat fəaliyyətinin sabitliyini təmin edir.

Əhalinin ərzaq təminatının öyrənilməsində əsas göstəricilərdən biri də adambaşına düşən ərzaq məhsullarının istehsalıdır. Normaya görə ildə orta hesabla hər nəfərə 81 kq. ət, 340 litr süd və 365 ədəd yumurta tələb olunur. Azərbaycanda adambaşına düşən ərzaq məhsulları 1995-ci ildə 14 kq. ət, 109 litr süd və 60 ədəd yumurta olduğu halda, 2013-cü ildə bu göstəricilər artaraq 32 kq. ət, 196 litr süd və 151 ədəd yumurta olmuşdur. 1995-2014-cü illərdə adambaşına düşən heyvandarlıq məhsullarının artım dinamikasının müşahidə olunmasına baxmayaraq, bu göstəricilər ümumi normalardan geri qalır. Odur ki, heyvandarlıq məhsulları istehsalı ilə istehlak arasında əmələ gəlmiş uyğunsuzluğu ləğv etmək üçün heyvandarlıq üzrə ixtisaslaşdırılmış zonaları müəyyənləşdirməklə ümumi kənd təsərrüfatı istehsalında bu sahələrin xüsusi çəkisini xeyli yüksəltmək lazımdır.

Heyvandarlıq məhsullarının istehsalına aid olan cədvələ nəzər salsaq görərik ki, bütün sahələrdə artım müşahidə edilir (cədvəl 2). 1995-2014-cü illərin müqayisəsində Böyük Qafqaz regionunda ət istehsalı 2,5 dəfə, süd istehsalının 1,9 dəfə, yumurta istehsalı 3,3 dəfə artmışdır. Bu da Azərbaycanda istehsal olunan ətin 23,4%-i, südün 26,3%-i, yumurta istehsalının isə 28,4%-i deməkdir.

Cədvəl 2

Böyük Qafqaz regionunda heyvandarlıq məhsullarının istehsalı

| | Ət (kəsilmiş çəkidə), ton | Süd, ton | Yumurta, mln. ədəd |
|---|---|---|---|
| *1995* | | | |
| Abşeron | 3337 | 12153 | 14737 |
| Şəki-Zaqatala | 11724 | 120053 | 52976 |
| Quba-Xaçmaz | 6905 | 70953 | 40885 |
| Dağlıq Şirvan | 5036 | 54218 | 26183 |
| Böyük Qafqaz: | 27002 | 257377 | 134781 |
| *2014-cü il* | | | |
| Abşeron | 9072 | 56712 | 249671 |
| Şəki-Zaqatala | 20175 | 189649 | 76211 |
| Quba-Xaçmaz | 45595 | 137712 | 76538 |
| Dağlıq Şirvan | 11343 | 102622 | 40666 |
| Böyük Qafqaz: | 68027 | 486695 | 443086 |

Mənbə: Azərbaycanın regionları, 2002. ARDSK
Azərbaycanın kənd təsərrüfatı 2015. ARDSK.

Tədqiqat apardığımız ərazi daxilində 2000-ci ildə ət istehsalının 50,9%-i Zaqatala, Xaçmaz, Şəki, Qəbələ, Quba; süd istehsalının 53,1%-i Zaqatala, Şəki, Qəbələ, Xaçmaz, Quba, Qusar; yumurta istehsalının 52,5%-i Abşeron, Xaçmaz, Şəki, Qusar; 2014-cü ildə isə ət istehsalının 61,7%-i Siyəzən, Şabran, Xaçmaz, Şəki, Zaqatala, Xızı; süd istehsalının 49,%%-i Şəki, Zaqatala, Xaçmaz, Abşeron, Quba; yumurta istehsalının 63,3%-ni Xızı, Abşeron, Şəki, Siyəzən, Zaqatala rayonlarının payına düşmüşdür.

Böyük Qafqaz regionunda heyvandarlıq məhsulları istehsalını artırmaq və keyfiyyət baxımından onun yaxşılaşdırılması məqsədi ilə aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsini daha məqsədəuyğun hesab etmək olar:

- heyvandarlığın və onun yem bazasının intensiv metodlarla inkişaf etdirilməsi;
- yeni cins malların ölkəyə gətirilməsi və onların pilot təsərrüfatlarda yetişdirilməsi üçün şəraitin yaradılması;
- regionlarda süni mayalama şəbəkəsinin təşkili və genişləndirilməsi;
- özəl baytarlıq xidmətinin inkişaf etdirilməsi;

- dövlət damazlıq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi;
- ət-süd və süd məhsullarının istehsalının artırılması üçün müasir tələblərə cavab verən ət və süd emalı müəssislərinin yaradılması;
- quşçuluğu və arıçılığı inkişaf etdirmək üçün damazlıq təsərrüfatların stimullaşdırılması;
- ilan təsərrüfatının yenidən inkişaf etdirilməsi məqsədilə pilot layihələrinin hazırlanması və onların realizə edilməsi üçün uzunmüddətli kreditlərin verilməsi;
- heyvandarlıq məhsullarının rəqabət qabiliyyətli olması üçün müasir texnologiyaların tətbiqi;
- ekoloji təmiz heyvandarlıq məhsulları istehsalının və ilkin emalının artırılması.

Dissertasiya işinin "**Böyük Qafqazda heyvandarlığın inkişaf etdirilməsinin perspektivləri**" adlı üçüncü fəslində Dövlət Proqramlarında əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində heyvandarlığın rolu, heyvandarlığın ərazi təşkilinin perspektivləri və rayonlaşdırılması verilməklə, regionda aqrar-sənaye kompleksində əhali məşğulluğu məsələlərinə toxunulmuşdur.

Ölkənin siyasi və iqtisadi sabitliyi, əhalinin sağlam həyat tərzi, onun ərzaq təhlükəsizliyi ilə sıx surətdə bağlıdır. Ərzaq təhlükəsizliyinin təminatı ərzaq bazarının vəziyyəti, yerli kənd təsərrüfatı sahələrinin inkişaf səviyyəsi, yerli əhalini ərzaq məhsulları ilə təmin etmək imkanları və s. kimi xarakterizə olunur. Ölkə əhalisinin ərzaq təminatı və ərzaq təhlükəsizliyi problemlərinin həlli kənd təsərrüfatı sahələrinin, xüsusilə əhalinin gündəlik ərzaq məhsullarına olan tələbatının ödənilməsi aqrar təsərrüfat komplekslərinin hərtərəfli inkişaf etdirilməsi, insan orqanizminin ən çox ehtiyacı olan ət, süd və süd məhsullarının zülallar, yağlar, karbohidratlar və s. qidalı maddələrlə zəngin olmasındadır. Ərzaq təhlükəsizliyinin təminatı dövlətin həyat fəaliyyətinin sabitliyini təmin edir. Azərbaycan Respublikasında ərzaq bolluğu yaratmaq, kənd təsərrüfatı məhsulları istehsalı sahəsində xarici bazardan asılılığı aradan qaldırmaq və əhalinin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə yüksək keyfiyyətli ərzaq məhsullarının istehsalı tələb olunur.

Azərbaycanda əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu sahələrin inkişafına yönələn irimiqyaslı Dövlət Proqramları həyata keçirir. Bunlara "Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013 və 2014-2018-ci illərdə

sosial-iqtisadi inkişafı Dövlət Proqramları", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nı aid etmək olar. Bu proqramlar çərçivəsində ölkə üzrə heyvandarlıq məhsullarının istehsalında artım dinamikası saxlanılmış və əhalinin heyvandarlıq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəmək məqsədi ilə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm dövlət əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Dövlət Proqramlarının həyata keçirilməsi ilə regional inkişaf prinsiplərinə uyğun olaraq milli aqrar bazarın formalaşmasına, regionlarda yaşayan əhalinin işlə təminatına və aqrar-sənaye komplekslərinin sahə strukturlarının təkmilləşdirilməsinə, kənd təsərrüfatı istehsalında yeni emal və xidmət sahələrinin yaradılmasına zəmin yaratmışdır.

Dövlət Proqramları uzunmüddətli və davamlı inkişaf strategiyasına əsaslanan iqtisadi sistemlərin bazar prinsipləri əsasında həyata keçirilir. Bununla da kənd təsərrüfatı məhsullarını istehsal edən sənaye müəssisələrində artım tendensiyası və xammal bazarının tənzimlənməsi müşahidə olunmuşdur. Bu proqramlarda kənd təsərrüfatının aqrar sənaye müəssisələri və iqtisadiyyatın digər aparıcı sahələri arasında optimal nisbətin yaradılması, keyfiyyətli məhsulların istehsal edilməsi, sertifikatlaşdırılma işlərinin aparılması, bazarın dövlət tənzimlənməsinin gücləndirilməsi, maliyyə-kredit mexanizminə spesifik yanaşılması və səmərəli xarici ticarət siyasətinin həyata keçirilməsi nəzərdə tutulur. Heyvandarlığın inkişaf etdirilməsi üçün onun yem bazasını (xüsusilə yonca, qarğıdalı, yem çuğunduru, arpa və digər əkin sahələri genişləndirilməsi) yaxşılaşdırılması, tələbatı nəzərə alaraq Bakı şəhərinin ətraf kənd və qəsəbələrində südçülük və ətlik istiqamətli maldarlıq təsərrüfatlarının yaradılması, dövlət damazlıq təsərrüfatlarında süni mayalama tədbirlərinin genişləndirilməsi üçün maddi-texniki bazanın möhkəmləndirilməsi, müasir tələblərə cavab verən yeni quşçuluq təsərrüfatlarının yaradılması, nohur təsərrüfatlarının təşkili və inkişaf etdirilməsi, respublikanın dağətəyi və dağlıq ərazilərində arıçılığın inkişaf etdirilməsi və s. bu kimi tədbirlər nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatının, o cümlədən heyvandarlığın qarşısında duran əsas vəzifə əhalinin ərzaq məhsullarına, sənayenin isə xammala artmaqda olan tələbatının ödənilməsidir. Bu özünü heyvandarlıq məhsullarının satışından əldə edilən gəlirlərdə də göstərir. Belə ki, heyvandarlıq məhsullarının satışından əldə edilən gəlirdə yalnız 2000-ci ildə zərər, digər illərdə

isə artım və azalma tendensiyası müşahidə olunmuşdur. Respublikada heyvandarlıq məhsullarının satışından əldə olunan gəlirin cəmi 25,8%-i Böyük Qafqaz rayonunun payına düşür.

Ərzaq təhlükəsizliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək, regionda məhsuldar heyvan cinsləri və keyfiyyətli heyvandarlıq məhsullarının istehsal edilməsini stimullaşdırmaq məqsədi ilə aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- iqtisadi münasibətləri təmin edən sağlam fermer-təsərrüfat fəaliyyəti həyata keçirən mühitin formalaşdırılması;
- davamlı inkişaf meyllərini təmin edən iqtisadi, sosial və ekoloji prosesləri tənzimləyən tədbirlərin həyata keçirilməsi;
- beynəlxalq təcrübəni nəzərə almaqla, ərzaq məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə nəzarət sisteminin yaradılması;
- azad bazar prinsiplərinə əsaslanan ticarət əlaqələrinin möhkəmləndirilməsi.

Böyük Qafqaz regionunda heyvandarlığın müasir inkişaf səviyyəsinin və perspektivlərinin düzgün müəyyənləşdirilməsində ərazi rayonlaşdırılmasının aparılmasının əhəmiyyəti böyükdür. Burada regiona aid olan hər bir bölgənin heyvandarlıq təsərrüfatlarının inkişaf səviyyəsi, iri və xırda buynuzlu mal-qaranın sayı, ev quşlarının sayı, adambaşına düşən heyvanların sayı, onların əraziyə və əhaliyə görə yerləşmə fərqləri, regionda yaşayan əhalinin heyvandarlıq məhsulları (ət, süd, yumurta və s.) ilə təmin olunmanın regional fərqləri kimi göstəricilər əsas götürülmüşdür. Böyük Qafqaz regionunda heyvandarlığın inkişaf səviyyəsi və əhalinin ərzaq məhsulları ilə təmin olunma imkanları nəzərə alınmaqla aşağıdakı 4 rayon ayrılmışdır (Şək. 4):

1. Heyvandarlığın çox yaxşı inkişaf etdiyi rayon - Xızı, Şabran, Siyəzən, Qobustan və Zaqatala rayonu.

2. Heyvandarlığın yaxşı inkişaf etdiyi rayon - Oğuz, Qəbələ, Xaçmaz, İsmayıllı və Ağsu rayonu.

3. Heyvandarlığın orta dərəcədə inkişaf etdiyi rayon - Şamaxı, Balakən, Qax, Şəki, Quba və Qusar rayonu.

4. Heyvandarlığın zəif inkişaf etdiyi rayon - Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu.




Şək. 4. Böyük Qafqaz regionunun heyvandarlığa görə rayonlaşdırılması

Qeyd edək ki, tərəfimizdən aparılan rayonlaşdırma Böyük Qafqaz regionuna aid olan hər bir inzibati rayonda əsas etibarilə heyvandarlıq təsərrüfatlarında istehsal olunan məhsulların həcmi, adambaşına məhsul istehsalı, rayonun təsərrüfat strukturunda heyvandarlığın tutduğu yer (heyvandarlıq məhsullarından əldə edilən gəlir), idxal olunan heyvandarlıq məhsulları, əhalinin heyvandarlıq məhsulları ilə təminatı və s. əlamətlərinə görə aparılmışdır.

Aqrar-sənaye müəssisələrinin inkişafı tələb və təklif əsasında formalaşan azad iqtisadi münasibətlər əsasında tənzimlənir. Bu münasibətlər kənd təsərrüfatı məhsullarından səmərəli istifadəyə, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yeni müəssisələrin yaradılmasına, eləcə də dayanıqlı inkişafın təmin edilməsinə əlverişli şərait yaradır. Son illər ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların strukturunda kənd təsərrüfatının xüsusi çəkisi artmışdır. Belə ki, 2000-2013-cü illər ərzində əsas kapitala yönəldilmiş investisiyaların 674,3 mln manatı, yəni 3,2%-i kənd təsərrüfatının payına düşmüşdür.

2014-cü ildə Dövlət Proqramları çərçivəsində Böyük Qafqaz regionunda 67812 yeni iş yerləri açılmışdır ki, bu göstərici də ümum respublikada üzrə 53,3% deməkdir. Həmçinin, tədqiqat regionunda 63017 daimi iş

yerləri açılmışdır. Respublika üzrə açılmış daimi yeni iş yerlərinin cəmi 0,9%-i kənd təsərrüfatının payına düşür. Böyük Qafqaz regionunda isə bu göstərici 0,3% təşkil edir.

Böyük Qafqaz regionunda yeni açılmış iş yerlərinin əsas hissəsi, yəni 73,0%-i, daimi iş yerlərinin isə 77,5%-i Abşeron iqtisadi-coğrafi rayonunun payına düşür. Abşeron iqtisadi-coğrafi rayonunda açılmış yeni və daimi iş yerlərinin müvafiq olaraq 77,6 və 78,6%-i Bakı şəhərində cəmlənmişdir. Böyük Qafqaz regionunun digər iqtisadi-coğrafi rayonlarında isə müvafiq olaraq yeni açılmış və daimi iş yerlərinin 10,2% və 9,7%-i Şəki-Zaqatala, 9,4% və 8,2%-i Quba-Xaçmaz, 7,4% və 4,6%-i Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarının payına düşür.

2014-cü ildə tədqiqat ərazisində işçi qüvvəsi əsas etibarilə fiziki şəxslər tərəfindən yaradılmış müəssisələrdə (69,3%) fəaliyyət göstərir. Yeni yaradılmış və mövcud müəssisələrdə daimi iş yerləri ilə təmin olunma müvafiq olaraq 12,7% və 17,3% olmuşdur. Daimi iş yerləri ilə daha az təmin olunma isə fəaliyyəti bərpa edilmiş müəssisələrin (0,7%) payına düşür.

2014-cü ildə regionda yeni açılmış 190 iş yeri kənd təsərrüfatı ilə məşğul olan müəssisələrin payına düşmüşdür ki, bu da ümumi açılmış iş yerlərinin 0,3%-i deməkdir. Respublika üzrə müqayisədə bu göstərici 19,1% təşkil edir ki, onun da əsas hissəsi, yəni 63,7%-i Bakı şəhərinin payına düşür. Hazırda kənd təsərrüfatı ilə məşğul olan sahələrdə Quba-Xaçmazda 36, Dağlıq Şirvanda 20, Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda isə 13 yeni iş yeri açılmışdır.

Ümumiləşdirilmiş şəkildə deyə bilərik ki, son illər aqrar sektorda həyata keçirilən islahatlar nəticəsində kənd əhalisinin maddi rifahı və sosial-məişət şəraiti yaxşılaşdırılmış, yeni iş yerləri yaradılmışdır.

## NƏTİCƏLƏR

1. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq Böyük Qafqaz regionunda heyvandarlığın ərazi təşkili iqtisadi-coğrafi baxımdan kompleks təhlil olunmuş və müəyyən edilmişdir ki, ərazinin təbii-iqtisadi potensialından tam istifadə olunmur. Belə ki, respublikada istehsal olunan ümumi məhsul istehsalının 80,04%-i bu regionun payına düşdüyü halda, burada kənd təsərrüfatı payı cəmi 2,75% təşkil edir.

2. Böyük Qafqaz regionunda heyvandarlığı inkişaf etdirmək üçün kifayət qədər torpaq ehtiyatları vardır. Burada yem bazasını möhkəmləndirmək və otlaq sahələrini genişləndirməklə kəndli-fermer təsərrüfatlarında

mal-qaranın baş sayını artırmaq, heyvandarlıq təsərrüfatlarını yerli xammal ehtiyatları ilə təmin etmək mümkündür.

3. Regionda əhalinin ərzaq məhsullarına olan tələbatını yerli istehsal hesabına ödəmək üçün bütün bölgələrdə aqrar islahatlar aparılmış və müxtəlif mülkiyyət formalarına əsaslanan yeni heyvandarlıq kompleksləri yaradılmışdır. Ölkədə və regionda həyata keçirilən aqrar islahatlar nəticəsində 2000-ci ildən başlayaraq heyvandarlığın inkişafında böhran vəziyyəti dayandırılmış və iqtisadi artıma nail olunmuşdur. Hazırda respublikada olan iri buynuzlu mal-qaranın 24,65%-i, xırda buynuzlu mal-qaranın 27,7%-i, donuzların 92,4%-i, ev quşlarının 33,0%-i Böyük Qafqaz regionunda cəmlənmişdir ki, bu da ətin 27,03%-i, südün 26,09%-i, kərə yağının 24%-i, yumurtanın 35,98%-i deməkdir.

4. 2005-ci ildən başlayaraq Böyük Qafqaz regionunda mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə ölkəyə 6022 baş holştin-friz, 1646 baş simmental, 380 baş şvis, 324 baş şarole və 25 baş Aberdin-anqus kimi yeni cins düyələr gətirilmiş, lakin ümumi tələbat tam ödənilməmişdir. Problemi aradan qaldırmaq üçün ilk dəfə olaraq Böyük Qafqaz regionunun iqtisadi və təbii-coğrafi şəraiti elmi baxımdan araşdırılmış, yeni yaradılmış aqrar sənaye müəssisələrinin imkanları və gələcək inkişaf istiqamətləri müəyyən edilmiş, "Böyük Qafqaz regionunda heyvandarlıq məhsullarının (ət, süd, yun və yumurta) istehsalı" üzrə xəritə-sxem tərtib edilmişdir.

5. Ümumdünya Səhiyyə Təşkilatının gündəlik və illik fizioloji normalarına görə adambaşına düşən ən zəruri heyvandarlıq məhsulları (ət, süd və yumurta) istehsalının müasir vəziyyəti və onun təkmilləşdirilməsi yolları tədqiq edilən zaman müəyyən edilmişdir ki, Böyük Qafqaz regionunda əhalinin mühüm ərzaq məhsullarına olan tələbatının minimum ödənilməsi kəndlərdə sosial problemlərin həllində vacib amillərdən biri kimi qiymətləndirilir. Lakin region heyvandarlıq təyinatlı ərzaq məhsullarının təminatında hələ də xarici bazardan asılıdır.

### *Təkliflər*

1. Böyük Qafqaz regionunda xüsusi təsərrüfatçılıq subyektlərinin inkişaf etdiyi hazırkı şəraitdə heyvanların baş sayını artırmaq və əhalinin əsas ərzaq növlərindən ət və süd məhsullarına olan tələbatının ödənilməsi üçün mal-qaranın yemlənməsinin və saxlanmasının, cins tərkibinin yaxşılaşdırılmasının və emal sənayesinin, tədarük və satış işinin təşkilinin kompleks təşkilinə nail olmaq lazımdır.

2. Regionun iri sənaye mərkəzlərinin və yaşayış məntəqələrinin kənarlarında yüksək gəlir gətirən və tez əmtəəlik məhsul verən broyler quşçuluğunun genişləndirilməsi və daha da inkişaf etdirilməsi nəzərə alınmalı, bununla əlaqədar olaraq emal, tədarük və satış sahəsində mövcud olan çatışmazlığı aradan qaldırılmalıdır.

3. Bütün bölgələrdə mal-qaranın məhsuldarlığını yüksəltmək məqsədilə bir illik və çoxillik otların əkin sahələri genişləndirilməli və onların istehsalının artırılması üçün xüsusi tədbirlər görülməlidir. Heyvandarlıq təsərrüfatlarının qüvvəli yemlərə olan tələbatı bölgələrin daxili imkanları hesabına ödənilməli, dənli bitkilərin strukturunda arpa, vələmir, çovdar, qarğıdalı, dənli-paxlalılarda yem noxudu, soya və digər əkinlərin artırılmasına diqqət ayrılmalı və əvvəl fəaliyyət göstərən yem zavodlarının fəaliyyəti bərpa edilməlidir.

**Dissertasiyanın məzmununa uyğun aşağıdakı məqalələr çap olunmuşdur.**

1. F.M.Cəfərova. Şəki-Zaqatala iqtisadi rayonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsində heyvandarlığın rolu // Prof. R.X.Piriyevin anadan olmasının 90 illiyinə həsr olunmuş konfrans. Bakı: 2014, s. 339-343
2. F.M.Cəfərova. Böyük Qafqazda heyvandarlığın yem bazasının möhkəmləndirilməsi və ekoloji təmiz heyvandarlıq məhsullarının istehsalı // Ekologiya və həyat fəaliyyətinin mühafizəsi üzrə "Sənaye İli"nə həsr olunmuş konfrans. Sumqayıt: 2014, s. 293-297
3. F.M.Cəfərova. Economic and Geographical Peculiarities of Territorial Oqganization of Livestock in the Azerbaijani Part of the Greater Caucasus / İnternational Journal of Humanities and Social Science. Vol. 5, №1. USA: 2015. Center for Promoting İdeas, s. 220-222
4. F.M.Cəfərova. Роль животноводства в обеспечении продовольственной безопасности Азербайджанской Республики / Приволжский Научный Вестник, №3-1(43). Ижевск: 2015, с. 72-76
5. F.M.Cəfərova. Böyük Qafqazda heyvandarlığın yemlə təminatının coğrafi istiqamətləri / Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası, №3. Bakı: 2015, s. 143-151 (T.G.Həsənovla birgə)
6. F.M.Cəfərova. Böyük Qafqaz təbii coğrafi rayonunda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində Dövlət Proqramlarının rolu //

Coğrafiya: Nəzəriyyə, Praktika və İnnovasiya. Bakı: 2015, s. 226-231
7. F.M.Cəfərova. Böyük Qafqazda heyvandarlığın ərazi təşkili və ərzaq təhlükəsizliyi / Gənc Alimlərin əsərləri, №11. Bakı: 2015, s. 129-133
8. F.M.Cəfərova. Böyük Qafqaz regionunda aqrar sənaye müəssisə-lərinin inkişaf etdirilməsi yolları // Azərbaycan Regionlarının coğrafi problemləri elmi-praktik konfrans. Bakı: 2016, s. 126-128
9. F.M.Cəfərova. Экологическая безопасность продукции животно-водства в экономико-географических районах Азербайджанской части Большого Кавказа / Юг России: экология, развитие. Том 11, №2. Дагестан: 2016, с. 178-184

**Ф.М.Джафарова**

# Экономико-географическое исследование территориальной организации животноводства на Большом Кавказе

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка из 122 используемой литературы.

Во вступительной части отмечается актуальность темы, объект и предмет исследования, уровень исследования проблемы, цели и задачи, теоретические и методологические основы, информационная база, научная новизна, защищаемые положения и практическое значение работы.

Первая глава диссертации приводится подробный анализ работ, проведенных учеными и исследователями в области сельского хозяйства страны, в частности животноводства, а также изучена динамика животноводства по этапам его исторического развития, а также обоснована роль животноводства в обеспечении продовольственной безопасности населения.

Во второй главе изучаются вопросы кормового обеспечения, территориальной организации и динамики развития животноводческого производства. Диссертант сначала исследует способы укрепления кормовой базы животноводства в целях достижения его высокого развития, анализирует летние и зимние пастбища, которые служат основой для сезонной кормовой базы, рассматривает вопросы миграции домашних животных, а также приводит динамику изменения площади посевных участков однолетних и многолетних кормовых культур.

В третьей главе показана роль животноводства в обеспечении продовольственной безопасности населения в рамках государственных программ, перспективы его территориальной организации и районирования. Также затронуты вопросы обеспечения занятости населения в недавно созданных агропромышленных комплексах региона.

В заключительной и рекомендательной части исследовательской работы, представлены научно обоснованные и экономически важные результаты о приоритетах нынешнего и будущего развития территориальной организации животноводства.

**F.M.Jafarova**

# Economic-geographical study of territorial organization of livestock in the Greater Caucasus

## SUMMARY

The dissertation consists of the introduction, three chapters, conclusions and recommendations, as well as list of 122 references.

The introduction describes the topicality, subject of study, research area, experience of relevant research, goals and objectives, theoretical and methodological foundations, informational base, scientific novelties, the defended provisions, and the practical importance of the work.

The first chapter includes the analysis of works carried out by scientists and researchers on country's agriculture, in particular the livestock industry, as well as the detail study of the dynamics of the historical development of animal husbandry by its stages, and also the justification of the role of livestock in ensuring food security.

In the second chapter the issues of forage supply, territorial organization and development dynamics of production of livestock are studied. The author investigates the ways of strengthening of forage bases of animal husbandry in order reach its high development, and then analyzes summer and winter pastures that serve as the seasonal perennial forage base as well as the migration issues of domestic animals. Dynamics of change of area of sown areas of annual and perennial forage crops is presented as well. Beside with this, production dynamics, distribution and modern development level of animal products are analyzed in detail through defining number of head of cattle by the fields of livestock, with indicating their future priorities.

The third chapter the role of livestock in ensuring food security of the population in state programs, as well as perspectives of its territorial organization and zoning of livestock are given. Issues of provision of employment in agro-industrial complexes, recently established in the region are touched, too.

In the conclusion and recommendation part of the work, scientifically justified and economically important results on priorities of current and future development of territorial organization of livestock are presented.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**ФИРУЗА МУБАРИЗ кызы ДЖАФАРОВА**

# ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ОРГАНИЗАЦИИ ЖИВОТНОВОДСТВА НА БОЛЬШОМ КАВКАЗЕ

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертация на соискание ученой степени
доктора философии по географии

**БАКУ – 2016**